# HƏMDANİLƏR

## ŞİƏ DÖVLƏTİ



Əli Deyləm

## Giriş

Kərbəla hadisəsi ilə yüksələn şiə kimliyi İslamın tarixi gedişatına böyük təsirlər göstərmişdir. Kərbəlanı öz siyasi məfkurəsi sayan şiələr zalım hökümətlərin və xarici işğalçıların ən təhlükəli düşmənləri idilər. Hüseyni ruha sahib kəslər mübarizənin çətinliyinə dözərək özlərini qan dəryasına atdılar və zülm şeytanının burnunu yerə sürtdülər. Büveyhilər, Həmdanilər və Səfəvilər kimi dövlətlər bu şanlı tarixin bir hissəsidir. Ağır mübarizələrin meyvəsi olan bu dövlətlər, hərbi qüdrət olmaqla birlikdə, həm də mədəniyyət, elm və hikmət mərkəzləri olmuşdur. Bu tarixi keçmiş özünü bu gün İran, Azərbaycan, İraq, Livan və Yəməndə göstərir. İran, şiə dünyasının mərkəzi və Müqavimət qüvvələrinin himayədarı olaraq böyük təsir gücünə malikdir. Livanda Hizbullah hərəkatı, İraqda müqavimət qüvvələri, Azərbaycanda Difai və Hüseyniyyun, Yəməndə isə Husilər kimi hərəkatlar bu tarixin izlərini daşıyır. Şiələrin İslam üçün göstərdiyi sədaqət və fədakarlıq ruhu, həm mənəvi, həm də siyasi sahələrdə onların varlığını daim güclü və təsirli edir.

IX əsrdə İslam dünyasının içinə düşdüyü çətin şərait, Bizansı cəsarətləndirmiş və imperiyanın genişlənmə həvəsini alovlandırmışdı. I. Vasiley dövründə İmperiyanın sərhədləri yuxarı Fərata qədər genişlənmiş və Samosata (873), Kappadokiya və Kilikiya (878 - 879) işğal edilmişdi. Bizans I. Vasiley dövründə Bulqar təhlükəsini dəf etmiş və möhkəmlənmiş mövqeyi ilə İslam dünyasına qarşı planlaşdırdığı hücum üçün artıq heç bir maneə görmürdü. I Vasileyin başlatdığı genişlənmə siyasəti ilə 928-ci ildə Theodosiopolis (Ərzurum), 934-cü ildə Meliten (Malatya), 944-cü ildə Edessa (Urfa), 949-cu ildə Germanikeia, (Maraş), 957-ci ildə Amida (Diyarbəkir) işğal edilmişdi. Bizans sərhədləri Halisdən (Qızılirmaq) Fərat və Dicləyə qədər uzanırdı. Bir Bizans tarixçisi işğalları belə vəsf edirdi: ***“Millətlər, Bizansın qəzəbindən qorxu içində idilər və xristianların qılıncı kafirləri oraq kimi biçirdi”*** (1)

Müsəlmanların böyük sınaqlarla üz-üzə qaldığı, ya öldürüldüyü, ya da dinini dəyişməyə məcbur edildiyi bir dövr yaşanırdı. Müsəlmanların qəlbində həmişə bizansdan etdikləri cinayətlərin intiqamını almaq arzusu olsa da, 10-cu əsrdə nə xəlifədən, nə də digər müsəlman əmirlərdən ciddi bir cəhd yox idi. Bu qaranlıq zamanlarda İslam ümmətinin xilası üçün sadəcə bir şəxs səhnəyə çıxdı. Fərabi bu şəxsin himayəsində “əl-Mədinətu’l-fazilə” əsərini yazıb, 50 minlik ilk Xaçlı koalisiyası bu şəxs tərəfindən məğlub edilib, Bizans komandirləri bu şəxslə aparılan müharibələrdə qaçmağa üz qoyub, Bizans vəliəhdləri isə yeraltı

sığınacaqlarda gizlənməyə məcbur olublar. Şəhid Muhəmmədbaqir Sədr, İslam tarixinin qüdrətli şiə dövlətlərini sadalarkən bu dövləti də siyahıya daxil etmişdir. Bu şəxs Hələb Həmdanilər dövlətinin əmiri Əbülhəsən Əli ibn Əbulheyca Seyfəddövlə idi. Livan əsilli amerikalı professor və alim Philip Khuri Hitti Seyfəddövlə haqqında Ərəb Tarixi əsərində yazır: ***"Seyfəddövlə, Ərəb tarixindəki şöhrətini alimləri himayə etməsinə və İslamın xristian düşmənlərinə qarşı buraxılan qılıncı təkrar əlinə almasına borcludur."*** (2)

Dr. Məhəmməd Abid əl-Cabiri bu hökümətin yaratdığı elmi mühitin bənzərsizliyindən bəhs edir. Bizans kimi qüdrətli bir imperiyaya qarşı tək bir əmirliyin bütün imkanlarını səfərbər edərək göstərdiyi müqavimət, tarixdə az rast gəlinən qəhrəmanlıq nümunələrindən biridir. Müsəlman dünyasının başı öz daxili mübarizələrinə o qədər qarışmışdı ki, bu, Bizans imperiyasının hər hansı bir qorxu və təhdid hiss etmədən İslam torpaqlarına hücum etməsinə şərait yaradırdı. Belə çətin və mürəkkəb bir dövrdə Hələb əmiri Seyfəddövlə Əbülhəsən Əli ibn Əbulheyca, cihad və müqavimət yolunu seçərək, Bizansa qarşı döyüşə atıldı. O, Hələbi müqavimətin və mədəni dirçəlişin qalasına çevirərək İslam aləmində böyük iz buraxdı. İndi isə bu mərd və fədakar dövlət adamını daha yaxından tanıyaq!

## Həmdanilərin yaranması

Xilafətin zəifləməsi nəticəsində vilayət hakimlər ilə yanaşı, ayrı-ayrı sərkədələrin də nüfuzu artır, mövqeyi güclənirdi. Həmdanilər X əsrdə xilafətin parçalanması nəticəsində Mosul və Hələbdə meydana gələn dövlətlərdən biri idi. Həmdanilərin mənşəyi Bəni-Təğlib qəbiləsinə gedib çıxırdı. Təğlibilər cahiliyyət dövründə belə yüksək nüfuz sahibi idilər. Bu xanədana adını verən Həmdan ibn Həmdun 890-cı ildə Xəlifə Əhməd Mötəmid Billah tərəfindən cənub-şərqi Anadolu bölgəsinə vali verilmişdi. Onun oğlu Abdullah ibn Həmdan 906-cı ildə Mosul valisi olaraq əmirliyə başlamış və sonradan 914-cü ildə Bağdadda vali olmuşdur. Abdullah xilafətdə çıxan üsyanları yatırmaq üçün dəfələrlə səfərlərə göndərilmiş və əldə etdiyi ardıcıl qələbələrdən sonra Əbulheyca (Müharibələr atası) ləqəbini almışdır. (3)

Əbu Mənsur Səalibi Həmdaniləri və Seyfəddövləni belə vəsf edir: *"Həmdanilər Əmir və Məlik idilər. Onların üzləri gözəl, dilləri fəsih, əlləri səxavətli və ağılları iti idi. Seyfəddövlə öz ağalığı ilə məşhur olmuşdur. O,*

*aralarında zinət idi. Onun fəthləri Roma tiranının odunu məhv etdi, onun şərrini aradan qaldırdı və İslamı qüvvətləndirdi."* (4)

Seyfəddövlə, Hələb Həmdanilərinin ən məşhur və ən görkəmli hakimi olaraq 944-967-ci illər arasında bu əmirliyə hakimlik etmişdir. Bölgənin tanınmış və şücaətli sərkərdəsi Seyfəddövlə Büveyhilər, İxşidilər və Fatimilərlə mübarizə aparmış, şöhrətini isə Bizansla olan mübarizəsində qazanmışdır. Rəvayətə görə o, Bizansa 40-a yaxın yürüş etmiş və bu döyüşlərin bəzilərində qalib, bəzilərində isə məğlub olmuşdur. (5) Belə ki, Seyfəddövlə kiçik bir əmirliyə rəhbərlik etməsinə baxmayaraq, 10-cu əsrdə Bizansın əsas rəqibi və düşmənə qarşı müqavimətin simvolu idi (6). O, parçalanmış İslam ümmətini birləşdirməyi bacarmış və İslam dünyasının dörd bir tərəfindən gələn möminlər onun bayrağı altında birləşmişdi (7). Seyyid Möhsin Əmini Əyanuş-Şiə kitabında yazır: ***"Onun qayğısı hər şeydən əvvəl, Bizanslıların İslam torpaqlarına nüfuz etməsinin qarşısını almaq idi. Deyə bilərik ki, İmadəddin Zənginin, Nurəddin Mahmudun və daha sonra isə Səlahəddin Əyyubinin, səlibçi adı ilə gizlənmiş avropalı işğalçıları dəf etməkdə gördükləri işi, onlardan əvvəl Seyfəddövlə həyata keçirmişdir."*** (8)

## Bizans qəzvələri

Seyfəddövlə haqqında məşhur bir rəvayət var. Bir axşam əmisi oğlu şair Əbu Firas əl-Həmdani onu Əbu Abdullah əl-Məcimin nəğmələrini dinləməyə dəvət edir və Seyfəddövlə bu unudulmaz sözlərlə ona cavab verir: **"Mən nəğmələrdən çox nal səsləri ilə məşğulam".** (9)

İslam və Ərəb ədəbiyyatının şah əsərlərindən olan İbn Nəbatənin cihad nitqləri, Bizans ilə olan qəzvələrin məhsulu idi. O, döyüşlərə təsir edən xütbələrində Quran ayələrindən, Peyğəmbər hədisləri və İmam Əlinin kəlamlarından istifadə edərək müsəlmanları bu döyüşlərə cəlb edirdi. Seyfəddövlə 923-cü ildə yuxarı Fərat bölgəsində yerləşən Harput qalası yaxınlığında, Bizans imperatoru Romanos I Lekapenosun şərq qüvvələrinə təyin etmiş olduğu komandirini məğlub etdi (10). Beləliklə, Şərqi Anadoluda illərdir davam edən Bizans hücumları dayanmış və artıq müsəlmanların hücuma keçəcəyi yeni bir dövr başlamışdı. Bu səbəbdən həmin dövr təkcə müsəlmanlar üçün deyil, həm də bizanslılar üçün əhəmiyyətli idi. Əmirin şöhrəti Bizansda o qədər yayıldı ki, 10-cu əsrdə yazılmış bizans tarixi kitabları onun adı çəkilmədən tamamlanmırdı.

Fransız tarixçi və numizmat Gustav Schlumberger yazır:

*"Onuncu əsrin ortalarında, Bizans tarixini araşdıranlar üçün təkrar edirəm ki, hər səhifədə Bizans imparatorluğunun ən dəhşətli düşməni olaraq tək bir ad yada düşür: Hələb hakimi Seyfəddövlə Həmdani"* (11).

I Səlib yürüşlərindən əvvəl Bizans ilə aparılan mübarizələr İslam cəmiyyəti və İslam tarixi üzərində böyük təsirlər qoymuşdur. Məxsusən də bu mübarizənin xəlifə Ömər hökümətinin sonlarına qədər xristianlığını qorumuş Bəni-Təğlib tayfasının davamçıları tərəfindən aparılması xüsusi bir önəm ərz edirdi. 938-ci ildə Seyfəddövlə yuxarı Fərat bölgəsində İoannes Kurkuasa qələbə çaldıqdan sonra Bizans ərazisinə doğru hücuma keçdi. Lakin xilafət mərkəzində çıxan qarışıqlıqdan sonra geri dönməyə məcbur oldu. (12) İngilis tarixçi John Julius Norwich Seyfəddövlənin Bağdada geri qayıtmasının Bizans üçün necə böyük bir şans olduğundan belə bəhs edir: ***"Əgər Bağdadda yeni böhran onu paytaxta qayıtmağa məcbur etməsəydi, hadisələr çox fərqli inkişaf edə bilərdi. Bu, Bizanslılar üçün böyük fürsət idi"*** (13) Seyfəddövlənin İxşidilər ilə məşğul olduğunu görən Bizans, onun eyni zamanda iki cəbhədə vuruşa bilməyəcəyini düşünərək hücuma keçdilər. Seyfəddövlə cəld özünü Bağras və Maraşa çatdıraraq, Bizans ordusunu dar keçidlərdə pusquya salıb məğlub etdi. (14) Müsəlman əsirləri xilas edərək böyük miqdarda qənimət əldə etdikdən sonra geri döndü və İxşidilərdən Suriyanın şimalını, 944-cü ilə qədər isə Hələb və Homsu alaraq, ərazilərini daha da genişləndirməyə müvəffəq oldu. Əl-İxşidinin ölümündən sonra isə o, Dəməşq və Rəmələ də sahib çıxaraq, o dövr üçün qüdrətli və əzəmətli Həmdanilər dövlətini qurdu. (15) John Julius Norwich Seyfəddövlənin gəldiyi nöqtəyi belə izah edir: ***"Bütün bu fəthlər onun gənc yaşlarında nüfuzunu daha da artırdı və otuz beş yaşında erkən orta əsrlərin ideal ərəb əmirinə çevrildi. Döyüşdə qəddar və amansız, sülhdə isə mərhəmətli, şair, alim, sənət və ədəbiyyat hamisi, eyni zamanda İslam dünyasının ən böyük kitabxanasına sahib idi."*** (16) Bizans ilə yaxın münasibətləri olan ixşidilərin Suriyadan çəkilməsi və yerinə şiə hökümətinin meydana gəlməsi, artıq Bizansın asan qələbələr əldə etmək fəslini bağlamışdı. 10-cu əsrin o keşməkeşli illərini təhqiq edən John Julius Norwich kimi tarixçilər Bizans hücumlarının Əmir Seyfəddövlənin müqaviməti sayəsində yaxşı keçmədiyini qeyd edir. (17)

950-ci ildə Seyfəddövlə təkrar Bizans ərazisinə hücum çəkərək Səməndu və Harşanayı ələ keçirdi. Aldığı əsirləri özü ilə aparan Seyfəddövlə Kostantinopola yaxın bir bölgədə qarşılaşdığı Bizans komandirlərini ağır məğlubiyyətə uğratdı. Seyfəddövlə Kostantinopola o qədər yaxınlaşmışdı ki, şəhərlə arası 7 günlük məsafədə idi. Tarixçi John Julius Norwich, Seyfəddövlənin bu uğurlu səfərində bizi daha da aydınlaşdıracaq faktları qeyd edir: ***"O, heç olmasa ildə bir dəfə Bizans ərazisinə basqın edirdi. Ancaq bunların heç biri bu qədər təhlükəli olmadı. Vaxt çox yaxşı tənzimlənmişdi. Girit səfərinin ehtiyaclarına yönəlmiş şərq (Bizans) ordusu həmişəkindən daha çarəsiz vəziyyətdə idi. Seyfəddövlə belə fürsəti əldən verən adam deyil. Nikiforos Kritə yola düşən kimi (həmin gün ola bilərdi) otuz minə yaxın adamı ilə imperiyanın cənub-şərq sərhədinə daxil oldu, Şərqi Tavr dağlarını keçdi və Melitene (Malatya) yaxınlığındakı Kharsianon qalasını aldı, əsgərlərin bir qismini qırıb, digərlərini də əsir götürdü."*** (18)

Bu qələbə Seyfəddövləni o qədər öz təsiri altına almışdı ki, geri döndükləri yollarda plansız hərəkət etməsinə səbəb oldu. Bizans tarixçisi Diyakoz Leonun dediklərinə görə, Seyfəddövlə ərəb nağılındakı kimi ***"adamlarının başında qürurla irəliləyir, yol boyu böyük məharətlə nizəsini havaya atıb, düşərkən onu tutur, bir dəfə də olsun nizəsi yerə düşmür, marşın ritmini də heç vaxt pozmur".*** Qənimətlər və əsirlər ordunun hərəkətini yavaşlatmışdı. Bizans komandirləri onu Engizek dağ keçidində pusquya saldı. Seyfəddövlənin bu məğlubiyyəti tarixə "Qəzvətul-müsibət" olaraq keçmişdir. (19) Həmdanilərin məğlub olması heç nəyi dəyişdirməmişdi. Seyfəddövlə yaralı olaraq Hələbə çəkilsə də sağ qala bilmişdi. Çevik strategiyası, hərbi bacarıqları və müsəlmanları bu qəzvəyə cəlb etməsi ilə Seyfəddövlə Bizans üçün öz təhlükəsini qoruyurdu. Bizans anlayırdı ki, Hələb əmiri bu məğlubiyyətdən təsirlənib oradakı sarayında eyş-işrətlə məşğul olacaq biri deyil. O, bu məğlubiyyətin ağır intiqamının həsrəti ilə yanmaqda və Bizans üçün əvvəlkindən daha dəhşətli günlərin planlarını qurmaqdadır. Onun təhlükəsini aradan qaldıracaq tək şey Hələb əmirinin də etdiyi kimi birləşdirici konteksłə, Xristianlar arasında yaranacaq vəhdət və bu vəhdətin yaradacağı böyük bir ordu ilə onun nəfəsini kəsməkdir.

İslam dininin sürətlə yayılması, Həmdanilərin Suriya və Anadoluda qüdrətə çatmaları və Kostantinopola qədər yaxınlaşmaları, Bizansı Xaçlı Konfederasiyasını yaratmağa məcbur etmişdir ki, buna bənzər amilllər I Səlib yürüşlərinin də əsas səbəblərindən idi. 951-ci ildə Seyfəddövlə yeni ordu hazırladı və müharibə yenidən

başladı. Maraşda bizanslıları ağır məğlubiyyətə uğratdı və qala divarlarını möhkəmlətdi. (20) 4 il sonra baş verəcək döyüş isə, həm müsəlmanlar, həm də bizans üçün olduqca əhəmiyyətli idi. Erməni əsilli Bardas Phokas sayları 50 minə çatan, tərkibində yunan, rus, bulgar, erməni, xəzər və s. əksəri xristian millətlərdən ibarət tam təchizatlı bir ordu hazırlamış və onu qəfil yaxalamışdı. Seyfəddövlə azsaylı müsəlman ordusu ilə Phokasın qarşısına çıxdı. Səhərdən axşama qədər davam edən döyüşdə Seyfəddövlə parlaq bir qələbə qazandı. Böyük Xaçlı qoşununa qarşı özünəməxsus taktikaları ilə vuruşan Seyfəddövlə, bu qızğın döyüşdə düşməni darmadağın etmişdi. Çoxu meydanı qoyub qaçmış, qaça bilməyənlər isə ya əsir olmuş, ya da meydanda öldürülmüşdü. Bardas Phokasın özü yaralı şəkildə qaçmış, nəvəsi öldürülmüş, gələcəkdə imperator olacaq oğlu Nikephoros Phokas yeraltı sığınacaqlarda gizlənərək həyatda qala bilmişdi. Nəhəng Xaçlı ordusu üzərində əldə edilən nəticə müsəlmanlar üçün böyük bir iftixar, Bizans üçün isə böyük bir rəzillik idi. (21) Seyfəddövlə əzm və qətiyyətlə, məğlubiyyət və qələbələrə baxmayaraq səfərlərə davam etmiş, hətta iflic halda ikən belə döyüşləri idarə etmişdi. Bu səbəbdən o dövrdə "Bizansın ən çox qorxduğu düşməni" olaraq tanınmışdır. (22) Bizansın güclü, İslam hökümətlərinin isə xaos içində olduğu bir dönəmdə Seyfəddövlənin müqaviməti təqdirəlayiqdir. Bizansın Makedoniya xanədanı tərəfindən idarə olunduğu 10-cu əsrlər, nəhəng hərbi və iqtisadi potensiala malik olduğu dövrlər idi. Seyfəddövlənin Bizansla qəzvələrinin gedişatında məğlubiyyətlərin ən əsas səbəbi isə bunlardan ibarət olmuşdur: Fatimilərin hücumları, üsyankar Ərəb qəbilələri, xəyanət, Qərmətilərlə mübarizə, əsgər və ordu başçılarının özbaşınalığı və Seyfəddövlənin bir müddətdən sonra özünü göstərən xəstəliyi idi. Bu xəstəlik ən kritik zamanlarda onu haldan salmış və iflic olmuşdu. Suriya Tarix Cəmiyyətinin üzvü tədqiqatçı Sami əl-Kayyali deyir:

***"O, hərc-mərcliyin hökm sürdüyü bir dövrdə xaosu cilovlamağa, nizam-intizam yaratmağa və Roma qoşunlarına qarşı müqavimət göstərməyə müvəffəq oldu"*** (23)

Seyfəddövlənin çalışdığı digər bir məsələ də müsəlman əsirlərin xilas edilməsi idi. Bizans ərazilərinə etdiyi hücumlarda bacardığı qədər çox əsir almağa çalışır, Bizans ilə aparılan danışıqlarda əlində olan əsirlərlə, müsəlman əsirləri xilas etməyə cəhd göstərirdi. Buna döyüşlərdə ələ keçirdiyi qənimətlər də daxil idi. Əmisi oğlu Əbu Firas Həmdani də Bizansın əlində əsir olmuşdu. Qohumlardan gələn xahişlərə baxmayaraq əmisi oğlunu digər müsəlmanlardan üstün tutmadı.

Əbu Firas digər müsəlmanla birlikdə xilas edildi. Bu, onun əxlaqi keyfiyyətlərindən biri idi. (24)

**Elmi Mühit**

Seyfəddövlə, Şərq tarixində təkcə siyasi-ictimai xadim kimi deyil, həm də ədibləri, alim və filosofları öz sarayına toplayaraq onları himayə edən bir hökmdar kimi tanınmışdır. Hələb öz qədim tarixinin ən parlaq dövrünü yaşayırdı. Seyfəddövlənin Hələbi fəth etməsindən sonra ilk dəfə olaraq müstəqil bir dövlətin paytaxtı və fatehinin baş iqamətgahı oldu. Onun Həllaba adlı möhtəşəm sarayı 10-cu əsr İslam dünyasının ən gözəl və məşhur tikililərindən biri idi. Həmçinin bu saray10-cu əsrdə şərqin hikmət mərkəzi olmuşdu. Arnold Tomasın dediyinə görə, Seyfəddövlə Platon doktrinasına söykənməklə filosof və ziyalılar tərəfindən idarə olunacaq ideal bir dövlətçilik qurmağa can atırdı. (25) Belə ki, himayəsində *Mütənəbbi, Fərabi, Əbu Firas əl-Həmdani, Əbulfərəc İsfahani, Naimi, Bəbbəga, Və'va Dəməşqi, Xalidiyyan, Hüseyn ibn Kəşkəraya, Əbul Qasim Rəqqi, İbn Xaləveyh, Əbu Tayyib Lüğəvi, Əbu Əli Farisi, İbn Hövqəl, Küşacim, İbn Nəbatə əl-Xətib* kimi ədib və alimlər Hələbi bir mədəniyyət ocağına çevirdilər. Bu səbəblərlə müasir müəlliflər onun hakimiyyət illərini Hələb üçün "əl-əsruz-zəhəb" (qızıl dövr) olaraq adlandırmışlar. (26) Riyaziyyat və astronomiya sahələrində astroloq Əbu Qasim ər-Rəqi və əl-Müctəba əl-Antaki Seyfəddövlə və onun səltənəti dövründə yaşamışdı və hər biri böyük əsərlər yaratmışdır. Dilçilik elmləri sahəsində əl-Hüseyn İbn Xaləveyh bir çox kitablar yazmışdır. (*red).* Həmədan əsilli alim Dəməşq, Məyyafariqin və Humsda verdiyi dərslərlə şöhrəti Hələb sarayına qədər çatmışdı. O, Hələbə gedir və Əmir Seyfəddövlə tərəfindən saray müəllimi təyin edilir. Əmirin məhəbbət və rəğbətini qazanan İbn Xaləveyh digər sülalə üzvləri tərəfindən də hörmət qazanmış və Seyfəddövlənin vəfatından sonra da sarayda hörmətini qorumuşdur. O, sülalənin bir çox mənsubunun, xüsusən Seyfəddövlə və övladlarının müəllimi oldu. Əbu Fərəc İsfahani "Əl-Ağani" adlı əsərini yazıb qurtardıqdan sonra onu Seyfəddövləyə göndərdi və Seyfəddövlə ona 1000 dinar bəxşiş verdi. İbn Cinni bir çox kitab yazmışdır ki, Yaqut (Həməvi) onun itmiş bir çox kitablarını sadalamışdır və bizim əlimizdə yalnız onların adları var. Coğrafiya sahəsində İbn Hövqəl "Əl-Məsalik Əl-Məmalik" kitablarını yazmışdır. Əbu Əli əl-Farsi İslam Şərqinin əksər şəhərlərini ziyarət etdi və hər bir şəhərdə onun dərsi və ondan soruşulan sualları ehtiva edən bir kitabları var, məsələn, Bağdad sualları

kitabı, Şiraz sualları kitabı, Bəsrə sualları kitabı, Şam sualları kitabı, hərbi suallar kitabı və s. (27)

## İmam Hüseynin Hələbdə vəfat etmiş oğlu Möhsin və Seyfəddövlə

Əmir Seyfəddövlənin həyatı boyunca etdiyi işlər arasında elə bir iş var ki, Əhli-beytin yaralı qəlbinə məlhəm sürtmüş və gizli qalmış bir həqiqəti aşkara çıxarmışdır. Deyilənə görə Kərbəla əsirlərinin Suriyaya aparılması zamanı, İmam Hüseynin (ə) həyat yoldaşlarından biri hamilə idi. O, övladını Hələb yaxınlığındakı Coşan dağının ətəklərində dünyaya gətirmiş, lakin əsirliyin ağır şərtləri səbəbindən körpə elə orada vəfat etmişdi. Bu uşağın ömrü cəmi bir gün çəkmişdi. Bu yer, hazırda "Məşhəd əl-Səqat" kimi tanınır və bəzi görkəmli alimlərin də məzarı buradadır. (28) Yəhya İbn Əbu Teyə görə Seyfəddövlə yuxusunda Coşan dağının yaxınlığına bir neçə nurun endiyini gördü. Dərhal gedib həmin yeri qazdı və bir kitabə tapdı. Kitabədə ***“Bu Möhsin ibn Hüseyn ibn Əli ibn Əbu Talibin məzarıdır”*** yazılmışdı. Əmir bir alim məclisi qurduraraq İmam Hüseynin Möhsin adında bir oğlu olub-olmadığını soruşdu. Bir qisim alimlər belə birindən xəbərlərinin olmadığını, bir qisim alim isə ad bənzərliyindən Həzrəti Fatimənin siqt olmuş oğlu Möhsindən bəhs etdilər. Alimlərdən bir neçəsi Kərbəla əsirliyində İmamın bir xanımının Hələb yaxınlığında bir uşaq dünyaya gətirdiyini, amma çox keçmədən onun vəfat etdiyi bildirdilər. Əmir Seyfəddövlə məclisin sonunda belə dedi: ***“Bura elə bir yerdir ki, Allah mənə onu Əhli-beyt adına tikmək səlahiyyətini verdi.”*** Yəhya ibn Əbi Tey: ***“Qara daşdan kiçik bir qapısı olan, üzərində Kufəlilərin əlyazması ilə qalın yazı ilə yazılmış bu hərəmin qapısına çatdım: “Bu mübarək hərəm Allah rizası üçün, möhtərəm əmir Seyfəddövlə Əbülhəsən Əli bin Abdullah bin Həmdanın əmisi adına, ağamız Əli ibn Əbi Talib oğlu Hüseyn oğlu Möhsin adına tikilmişdir.”*** (29)

Coşan dağının ətəyində yerləşən türbə bu gün Hələbin Məşhəd küçəsində yerləşir və şəhər əhalisi arasında Şeyx Möhsin adı ilə tanınır. Hərəm 2012-ci il avqustun 24-də vahhabilər tərəfindən törədilən terror aktı nəticəsində partladılıb.

## Həmdanilər və Şiəlik

Əmir Seyfəddövlə şiəliyi Həmdanilər dövlətinin siyasi-ideoloji məzhəbi etmişdi. Şair və alimlər özləri üçün yaradılmış bu möhtəşəm elmi mühitə çatmaq arzusu ilə Hələb sarayında toplanmışdılar. Hələb sarayına yığışmış şairlər də,

İmam Əlini və digər imamları mədh edir, Kərbəla vaqiəsinə dair mərsiyələr yazır, İslam Xilafətinin peyğəmbər övladlarının haqqı olduğunu öz şeirlərində dilə gətirirdilər. Seyfəddövlənin sifarişi ilə Əbul Fərəc əl-İsfahani Əhli-beytin tarixinə dair "Məqatilut talibiyyin" adlı nəsr əsəri də yazmışdır. Cəfər ibn Əbu Talibin şəhadətindən Müqtədir Billahın hakimiyyətinə (908-932) qədər Əhli-beytdən olan şəhidlərin hekayətlərindən, qiyamlarından, kim tərəfindən öldürüldüklərindən, harada və necə öldürüldüklərindən bəhs edən əsərdir. Mürtəza Mütəhhəri "Haqq və batil" kitabında Əbülfərəc İsfahaninin ədalətli alim, böyük tarixçi və əsərini qərəzsiz yazdığını bildirmiş və onun "Məqatil əl-Talibin" kitabını şiə alimlərinin də etibar etdiyi kitab hesab edir.

Seyfəddövlənin əmisi oğlu və Mənbic valisi Əbu Firas əl-Həmdaninin yaradıcılığında Əhli-beytə (ə) olan sevgini müşahidə etmək mümkündür.

**Bəni Abbasın hakimiyyət gözünü qamaşdırmasın,**

**Rəhbərliyə imkan versələr, ağalıq Əli övladlarınındır.**

**Siz onlara qarşı iftixar edirsiniz?**

**Atanıza lənət, guya Rəsulullah sizin babanızdır?**

**Şanlılıq və əzəmətdə onlar kimi deyilsiniz,**

**Sizin babanız da onların babasının tayı ola bilməz.**

**İrqiniz də onların irqinə bənzəmir,**

**Ananız Nəfilə onların anasına (Hz. Fatiməyə) tay ola bilməz.**

Əbu Firas təkcə şair deyil, o həm də döyüş meydanlarının qəhrəmanıdır. O, döyüşlərə əzmlə gedir, Həmdanilərin bizanslılar və hökmdara boyun əyməyən köçəri bədəvi ərəb qəbilələri ilə vuruşlarına qətiyyətlə atılırdı. Hətta bir döyüşə gedərkən münəccim bunun uğursuz olacağını dedikdə ona belə cavab verir:

**Ey ulduzların vəziyyətindən təəccüblənən,**

**Bədbəxtlik və xoşbəxtlik səndən gəlmir.**

**Allah hər şeyi (uğursuzluğu) yoluna qoyur,**

**Hər şey Allahın əlindədir.**

**Mənim nə istədiyimdən, sənin nə istədiyindən vaz keç,**

**Hər şey Allahın iradəsinə bağlıdır.**

Seyfəddövlə 967-ci ildə Məyyafariqində (Diyarbəkir, Silvan) vəfat etdi. Cihad yolunda üzərinə toplanan toz-torpaqdan kərpic hazırlanmasını və məzarının başına qoyulmasını vəsiyyət etmişdi. Çətin dövrlərdən keçən Həmdanilər dövləti Seyfəddövlənin ölümündən sonra ölkədaxili çakişmələr, xarici hücumlar və hakimlərin bacarıqsızlığı səbəbindən zəiflədi, nəticədə 1004-cü ildə süqut etdi.

Suriyalı tarixçi Muhəmməd Fərid yazır: "**Seyfəddövlə olmasaydı, romalılar Şam torpaqlarından irəli gedəcəkdilər və bəlkə də Abbasilərdən sonra bütün İslam torpaqlarını nəzarətə götürəcəkdilər.**"

Qaynaq:


1. Charlies Diehi, Bizans İmperatorluğu Tarixi, s. 85
2. Philip Khuri Hitti - History of the Arabs, s, 459, MACMİLLAN EDUCATİON LTD
3. https://islamansiklopedisi.org.tr/abdullah-b-hamdan
4. Şövqi Deyf – Ərəb Ədəbiyyatı Tarixi
5. Əbû Mənsur Əbdülməlik ibn Məhəmməd ibn İsmayıl Səalibi, Yətîmətu'd-dəhr fî məḥâsini əhlil-əṣr, thk: Muhammed Muhyiddin Abdülhamid, Beyrut: Daru'I-Fikr 1973, I, s. 28
6. Ostrogorsky, Georg, Bizans Devleti Tarihi, Çev. Fikret Işıltan, Ankara 2006, s. 258
7. Gustave Schlumberger, Un imperator byzantin au dixième siècle, Nicephore Phocas, s.132
8. Seyyid Möhsin Əmini Əyanuş-Şiə, Cild 8, s, 276
9. http://www.3rbi.info/Article.asp?ID=7591
10. Fikrət Işıltan, 1966, "Seyfüddevle", c. X, s. 536
11. Gustave Schlumberger, Un imperator byzantin au dixième siècle, Nicephore Phocas, s.121
12. Ostrogorsky, 2006, s. 258
13. JOHN JULIUS NORWICH BİZANS II Yükseliş Dönemi (MS 803-1081), S, 129

14. Mostafa Şek’a, 1977, s. 124
15. Əbu Mənsur Səalibi, əs-Səbail yumi tarixul ədəbil ərəbi fil-əsri cahiliyyə. Qahirə, Mutabatul-ulum 1937, (h.1356) s, 442
16. JOHN JULIUS NORWICH BİZANS II Yükseliş Dönemi (MS 803-1081), S, 150-151
17. JOHN JULIUS NORWICH BİZANS II Yükseliş Dönemi (MS 803-1081), S, 129
18. JOHN JULIUS NORWICH BİZANS II Yükseliş Dönemi (MS 803-1081), S, 151
19. Şek’a, 1977, s.124-126
20. Все монархи мира: Мусульманский Восток, Рыжов, Константин Владиславович с. 465
21. İbnü’l-Esir,1996, c. VIII, s. 508; Ostrogorsky, 2006, s. 263; Şek’a, 1977, s. 128: Gustave Schlumberger, Un imperator byzantin au dixième siècle, Nicephore Phocas, s.134
22. Levtchenko, M. V., Kuruluşundan Yıkılışma Kadar Bizans Tarihi, tre. Maide Selen, İstanbul: Özne Yayıncılık 1999, s. I 66
23. The Sword Of The State And The Era Of The Hamdanids, Sami Kayali
24. http://www.3rbi.info/Article.asp?ID=7591
25. Thomas A. The Caliphate (with a concluding chapter by Sylvia G. Haim). London: Poutledge 8 Kegon Paul, 1965, 244 p
26. Əbu Mənsur Səalibi “Ma cəra bəynə Səyfiddövlə vəl Mütənəbbi”
27. Seyyid Möhsin Əmini, Əyanuş-şiə, 8.cild, s, 271
28. Müntəhi əl-Əmal”, 1-ci cild, səh.776
29. Əbu Abdullah İzzəddin Məhəmməd b. Əli b. İbrahim ibn Şəddad , el-Aʻlâkü’l-hatîra fî zikri ümerâi’ş-Şam ve’l-Cezîre, s, 21
30. Məhəmməd Fərid Xitatuş-Şam əsəri, birinci cildi